**İyulun 4-də Xankəndi şəhərində İqtisadi Əməkdaşlıq Təşkilatının (ECO) 17-ci Zirvə Görüşü keçirildi. Bu hadisə, təkcə ənənəvi toplantı deyil, həm də Azərbaycanın Qarabağda suverenliyinin beynəlxalq səviyyədə tanınmasının bariz nümunəsinə çevrildi. Prezident İlham Əliyevin görüşdəki çıxışı isə bu baxımdan siyasi, iqtisadi, həm də ideoloji cəhətdən ciddi məzmun daşıyır. Dövlət başçısın nitqi Azərbaycanın postmünaqişə dövründə formalaşdırdığı strateji vizyonun, regional liderlik iddiasının və milli birliyin möhkəmləndirilməsi istiqamətində həyata keçirdiyi siyasətin aydın konturlarını ortaya qoydu.**

# Mühüm mesajlar fonunda yeni güc arxitekturası



ECO kimi nüfuzlu təşkilatın Zirvə görüşünün Xankəndidə keçirilməsi Qarabağda reallaşan tarixi ədalətin beynəlxalq miqyasda təsdiqi kimi dəyərləndirildi. Prezident İlham Əliyev qeyd etdi ki, Azərbaycanın döyüş meydanında əldə etdiyi qələbə təkcə hərbi yox, həm də siyasi və mənəvi üstünlüyün təzahürüdür. Prezident çıxışında Ermənistanın 30 illik işğalı nəticəsində Azərbaycanın mədəni, dini və tarixi irsinə vurduğu zərəri də detallı şəkildə ifadə etdi. 67 məsciddən 65-nin dağıdılması, qəbiristanlıqların təhqir olunması, şəhərlərin viran qoyulması faktları sadalanmaqla, Azərbaycanın bu torpaqlarda sülh və inkişaf yaratmaq uğrunda necə böyük fədakarlıq göstərdiyi dünya ictimaiyyətinə çatdırıldı. Bərpa-quruculuq işlərinin miqyası və "Böyük Qayıdış" proqramı bu çərçivədə mühüm ideoloji və sosial dayaq kimi təqdim olundu.

Dövlət başçısı Azərbaycanın beynəlxalq miqyasda artan roluna xüsusi vurğu etdi. COP29 kimi mühüm tədbirin Azərbaycanda təşkil olunması, 12 ölkəyə təbii qaz ixracı, Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin ölkə ərazisindən keçməsi və ECO çərçivəsində yeni təşəbbüslər Azərbaycanın regional liderlik iddialarının konkret göstəriciləridir.

Xankəndi Zirvəsi Azərbaycanın ərazi bütövlüyü və suverenliyinin tanınmasında yeni mərhələ oldu. ECO kimi 10-dan çox üzv ölkəni bir araya gətirən beynəlxalq təşkilatın rəhbərlərinin Xankəndidə bir araya gəlmələri, Ermənistanın saxta "status" və "münaqişə" iddialarının tamamilə iflasa uğradığını nümayiş etdirdi.

Prezidentin çıxışında Ermənistanın Qərbi Azərbaycandan zorla deportasiya etdiyi soydaşlarımızın geri qayıdış hüququna dair konkret mesajlar yer aldı. İslam Əməkdaşlıq Təşkilatının qətnamələrinə istinad etməklə bu məsələ artıq təkcə regional yox, həm də beynəlxalq gündəmin mühüm mövzularından birinə çevrilir. Ermənistanın bu dialoqa qarşı çıxması isə dünya ictimaiyyətinin diqqətinə çatdırıldı. Ermənistanı və havadarlarına xəbərdarlıqların vaxtında verildiyi, lakin ciddiyə alınmadığı vurğulanaraq, Azərbaycanın öz təhlükəsizliyini təmin etmək iqtidarında olduğu açıq şəkildə bəyan edildi. Bu, ölkəmizin yeni dövrdə beynəlxalq hüquqa əsaslanan, lakin öz gücünə arxalanan müstəqil siyasət xəttinin konturudur.

Azərbaycanın ECO-ya üzv ölkələrlə əməkdaşlığının güclənməsi, nəqliyyat dəhlizləri vasitəsilə ticarətin genişləndirilməsi və enerji sahəsində strateji tərəfdaşlıq münasibətləri bu görüşün əsas iqtisadi konturlarındandır. Xüsusilə qaz ixracının artması və alternativ enerji sahəsində atılan addımlar Azərbaycanı Cənubi Qafqazın əsas oyunçusuna çevirir. Prezident İlham Əliyevin vurğuladığı kimi, son 20 ildə Azərbaycan iqtisadiyyatına 350 milyard dollara yaxın sərmayə qoyulub ki, bunun da yarısı xarici sərmayədir. Bu fakt Azərbaycanın sabitlik, şəffaflıq və etibarlı tərəfdaşlıq nümunəsi kimi tanındığını göstərir. Təmiz Enerji Mərkəzinin yaradılması və Şuşanın 2026-cı ildə "ECO-nun Turizm paytaxtı" elan olunması da iqtisadi diplomatiyanın uğurlarındandır. İşğal dövründə təkcə torpaqlar deyil, həm də milli yaddaş, dini və mədəni irs hədəf alınıb. Bu, Azərbaycanın tarixi missiyası, milli ləyaqət və kimlik məsələsi kimi təqdim olunur.



Zirvə görüşünün Xankəndidə keçirilməsi Azərbaycan xalqı üçün yalnız siyasi deyil, həm də mənəvi zəfərin təsdiqidir. Bu, eyni zamanda dünya ictimaiyyətinə bir mesajdır: Azərbaycanın haqq işi təkcə hərbi qələbə ilə yekunlaşmayıb, həm də mədəni və siyasi reabilitasiya ilə davam edir.

Onu da qeyd etməliyik ki, Azərbaycanın postmünaqişə məkanında əldə etdiyi siyasi suverenlik artıq müxtəlif beynəlxalq tədbirlərin keçirilməsi ilə təzahür edir. Davamlı iqtisadi təşəbbüslər, enerji tranziti və investisiya mühitində əldə olunan nailiyyətlər qlobal iqtisadi miqyasda ölkənin mövqeyini gücləndirir. Milli yaddaşın bərpası, mədəni dirçəliş və sosial inteqrasiya ölkənin daxili birliyini və gələcəklə bağlı düşüncə sistemlərini formalaşdırır. Çoxölçülü diplomatiya və regional liderlik strateji balansa əsaslanır.

Prezident İlham Əliyevin Xankəndidə keçirilən ECO Zirvə görüşündəki çıxışı Azərbaycanın həm regionda, həm də qlobal miqyasda möhkəmlənən mövqeyinin ifadəsidir. Bu nitqdə Azərbaycanın güclü diplomatik iradəsi, iqtisadi imkanları və milli ideoloji birliyi eyni anda təqdim olunaraq ölkənin gələcək inkişaf modelinə dair aydın mesaj verildi. Zirvənin Qarabağda keçirilməsi təkcə siyasi qərar deyil, həm də tarixi yaddaşa hörmət, beynəlxalq hüququn təsdiqi və Azərbaycanın regionda liderliyinin rəsmiləşməsidir. Azərbaycan bu gün beynəlxalq arenada yalnız bir dövlət kimi deyil, həm də sabitliyin, inkişafın və milli iradənin mərkəzi kimi çıxış edir. Xankəndi görüşü də bunun bariz nümunəsi olaraq tarixə düşdü.

**Bəxtiyar NƏBİYEV,**
**YAP Yasamal rayon təşkilatının sədri.**